# QARABAĞIN TƏBİƏTİNDƏ ERMƏNİ VANDALİZMİNİN İZLƏRİ

**İsmayıl Məcidli**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar İnstitutu,*
*mecidli-ismayil@mail.ru*

Ermənistanın vandal təcavüzü nəticəsində təkcə 1988-1994-cü illər ərzində Azərbaycan Respublikasının 1,7 milyon hektar ərazisi işğal olunaraq, dünyanın heç bir yerində təbii halda bitməyən, 70-i endemik olan 460 növdən çox yabanı ağac və kol bitkiləri məhv edilmişdir. İşğal olunmuş ərazilərdə məhv edilmiş qaracöhrə, ayıfındığı, Araz palıdı, yalanqoz, Şərq çinarı, adi nar, meşə üzümü, pirkal, şümşad, Eldar şamı, adi xurma, söyüdyarpaq armud və s. növ ağaclar hazırda dünya florasının xəzinəsindən silinmək üzrədir.

Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarının ərazilərindəki qiymətli ağac və digər nadir biomüxtəliflik nümunələri ermənilər tərəfindən talan edilmişdir. Kəlbəcər rayonunda 968 hektar ərazini əhatə edən, Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş ayıfındığı ağacları da kütləvi şəkildə qırılmış, bəzi bitkilərin kökü kəsilmişdir.

Avropada yeganə olan, Kiçik Qafqazın qərb hissəsində – Zəngilan rayonunun Bəsitçay vadisində yerləşən, 117 hektar sahəni əhatə edən təbii çinar meşəsinin 107 hektarı Bəsitçay Dövlət Təbiət Qoruğuna məxsusdur. 1974-cü ildə mərhum akademik Həsən Əliyevin təşəbbüsü ilə yaradılmış, uzunluğu 15 km, eni 150-200 metrə çatan qoruq təəssüf ki, 30 ilə yaxın müddətdə erməni işğalçılarının əlində olmuşdur. Əsrlərin yadigarı çinar ağacları ermənilər tərəfindən qırılıb məhv edilmişdir. Bəsitçay vadisindəki çinar meşəsi təkcə Azərbaycana deyil, bütün Avropa təbiətinə məxsus olan nadir bir incidir.

Ağdam şəhərində yaşı 150-250 ilədək olan 6 ədəd, Şelli, Seyidli, Sarıhacılı, Əliağalı kəndlərində yaşı 200-250 il olan 8 ədəd, Boyəhmədli kəndi ətrafında yaşı 400 ilə çatan 71 ədəd təbiət abidəsi kimi qorunan, pasportlaşdırılmış Şərq çinarları qırılmışdır. Dünya mədəniyyətinin incilərindən biri olan Şuşa şəhərinin mədəniyyət və təbiət abidələri artıq məhv edilmişdir. "Ağzı yastı" kaha adlanan yerin qarşısında Topxana meşəsində və "Haça yal" adlanan sahəsində uzun illər mədəni formada əkilərək becərilmiş 2000 ədədə yaxın palıd ağacı ermənilər tərəfindən doğranaraq aparılmışdır. Şuşa və Əsgəran ərazisində 1988-ci ildə təşkil edilən 450 hektarlıq Daşaltı Dövlət Təbiət Yasaqlığı 1992-ci ildən işğal altında qalaraq tamamilə sıradan çıxmışdır. Bundan başqa, şəhərin "Haça yal" adlanan meşə sahəsində ermənilər 1500-2000-ə yaxın palıd ağaclarını əsirlikdə olanlara qırdırmışlar. 14 iyun 2006-cı il tarixində ermənilərin Xocavənd rayonunun "Qaraca çalan" və "Nərgiz təpə" adlanan hissələrində yanğın törətmələri nəticəsində 15000 hektara qədər torpaq sahəsinin üst qatı və bitki örtüyü tamamilə məhv edilmişdir.

Zəngin biomüxtəlifliyə malik Azərbaycan təbiətinin bir parçası olan və Laçın rayonunda yerləşən Qaragöl Dövlət Təbiət Qoruğunda isə ətraf mühitə vurulan ziyanın məbləği ölçüyəgəlməz dərəcədədir. Ümumi sahəsi 240 hektar olan qoruğa ermənilər tərəfindən ciddi ziyan dəymişdir.

İşğal olunmuş rayonlarda 247352 hektar meşə sahəsi, o cümlədən 13197,5 ha qiymətli meşə sahələri, 152 ədəd təbiət abidəsi və 5 ədəd geoloji obyekt olmuşdur. Qiymətli ağac növlərindən ibarət 986 hektar dövlət meşə sahəsi, 710 hektar kolxoz meşələri, 560 hektar yol, su-kanal kənarları, mədəni meşələr işğal altında qaldığı müddətdə ərazidə törədilən yanğınlar nəticəsində bölgənin flora və faunasına ciddi ziyan vurulmuşdur.

Ümumilikdə götürdükdə, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan ordusunun əsgərləri tərəfindən qəsdən törədilmiş yanğınlar nəticəsində 96 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri məhv edilmiş, torpağın üst münbit qatı yararsız hala düşmüşdür. Yanğınlar zamanı ətraf mühitə 176 milyon manat məbləğində ziyan dəymişdir. 2006-cı ildən başlayaraq ermə-

nilər tərəfindən mütəmadi olaraq törədilən yanğınlar nəticəsində 110 min hektardan çox münbit torpaq məhv edilmiş, ətraf mühitə və canlı təbiətə əhəmiyyətli dərəcədə ziyan dəymişdir.

Məlumdur ki, su hövzələrinin, xüsusən suvarmada istifadə edilən çayların ağır metallar, fenollar, neft məhsulları və s. zərərli maddələrlə həddən artıq çirklənməsi biomüxtəlifliyə ciddi ziyan vurur. Bunu Kür, Araz, Oxçuçay və digər çayların timsalında görmək olar. Hesablamalar göstərir ki, Kür çayı hövzəsinə Ermənistan ərazisindən ildə orta hesabla 350 mln. $m^3$, Gürcüstan ərazisindən 330 mln. $m^3$, Azərbaycan ərazisindən isə 25 mln. $m^3$ çirkab sular buraxılır. Nəticədə çay sularında əzəldən formalaşmış mikroflora da məhv olmuş, öz-özünü təmizləmə prosesi dayanmışdır.

Azərbaycan azsulu ölkələrdən biridir. Ölkəmizin suya olan tələbatının 70 faizi kənardan formalaşır. Respublikamızın su ehtiyatının çox hissəsi azad edilmiş ərazilərdədir. Mənfur qonşularımız transsərhəd çaylar və beynəlxalq göllərin mühafizəsi ilə bağlı konvensiyaların üzvü olmadığından heç bir məsuliyyət daşımırlar. Onlar üzv olduqları konvensiyaların da şərtlərinə riayət etmirlər. İşğal olunmuş ərazilərdən keçən təbii su mənbələrimiz də Ermənistan tərəfindən həddindən artıq çirklənməyə məruz qalmışdır.

Mütəxəssislər tərəfindən aparılmış ilkin hesablamalara görə, ətraf mühitə və təbii sərvətlərə vurulmuş ziyanın miqdarı təqribən 265,3 milyard ABŞ dollarından çoxdur. Ermənistanın işğalı nəticəsində Azərbaycan dövlətinə və vətəndaşlarına dəymiş maddi zərərin məbləği beynəlxalq standartlara əsasən müəyyən edilməsi məqsədilə aparılmış kompleks məhkəmə ekspertizasının ilkin hesablamalarına görə, 818 milyard 880 milyon ABŞ dolları təşkil edir.

Erməni vandalizminin əməlləri barədə Avropa Vəhşi Təbiətin və Təbii Ətraf Mühitin Mühafizəsi üzrə Bern Konvensiyasının Baş Katibinə, Biomüxtəliflik üzrə Konvensiyanın İcraçı katibinə, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə, Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq Birliyin Prezidentinə rəsmi müraciətlər edilmiş, bu istiqamətdə təxirəsalınmaz tədbirlərin görülməsinin zəruriliyi beynəlxalq təşkilatların diqqətinə çatdırılsa da, təəssüf ki, bu təşkilatlar tərəfindən hələ də müsbət addımlar atılmamışdır.

Bütün bunlara baxmayaraq, Azərbaycan öz növbəsində suverenliyə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına hörmət əsasında sülh, təhlükəsizlik, regional inkişaf və əməkdaşlığa sadiq olaraq qalmaqdadır. Biz artıq 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərin davamı olaraq, qayıdıb o əraziləri yenidən dilbər guşələrə çevirəcək, həmin torpaqların əzəli və əbədi sahibləri olduğumuzu bütün dünyaya bir daha sübut edəcəyik.